
СУВАР
Ягъ,
са лезги
гъава

# «СУВАР»

# ЛЕЗГИ МАНИЙРИННИ



# LƏZGİ MAHNI VƏ

Bakı - 2016

За и ктаб 20 йисан къене лезги халкьдин меденият рикI алаз кIанарай «Сувар» ансамблдиз бахшзава.

Bu kitabı 20 il ləzgi xalqının mədəniyyətini məhəbbətlə təbliğ etmiş “Suvar” ansamblına ithaf edirəm.

Эту книгу я посвящаю ансамблю «Сувар», 20 лет с любовью пропагандировавшему культуру лезгинского народа.

С.Керимова

# КЬУЬЛЕРИН АНСАМБЛЬ



# RƏQS ANSAMBLI

# «SUVAR»

Баку - 2016

S 06 (16)

**Sədaqət Kərimova**
S 06 (16) «Suvar». – Bakı, «Azərbaycan» nəşriyyatı, 2016. – 104 səh.

Sədaqət Kərimovanın «Suvar» adlı növbəti kitabı onun 1996-ci ildə yaratdığı və bədii rəhbəri olduğu «Suvar» Ləzgi Mahnı və Rəqs Ansamblının 20 illik yubileyinə həsr olunmuşdur. Kitabda ansamblın yaranması və fəaliyyəti, kollektivin respublikamızda, həmçinin onun hüdudlarından kənarda qazandığı yaradıcılıq uğurları haqqında ətraflı söhbət açılır.

**S $\frac{4804000000 - 006 (16)}{M 670 (07) - 2016}$ Sifarişlə**

© Sədaqət Kərimova, 2016.
© «Azərbaycan» nəşriyyatı, 2016.

# «СУВАРИН» ГИМН

*Чун санал хьун мел-мехъер я, сувар я,*
*Квез макьамар ягъазвайди «Сувар» я.*
*Къе чи чIалан, чи макьамрин сувар я,*
*Агалкьунар тIалаб ая «Суывариз»,*
*Куьн атурай, Рагъ атурай «Сувариз».*

*Къени хьурай куь кIвалер-къар, суварар,*
*Макьамри квехъ кутадайвал луварар,*
*Чан хайибур, чан кьегьалар, таварар,*
*Квез макьамрин кIунчIар гъурай «Сувари»,*
*Куь рикIера гелер турай «Сувари».*



# ETIRAF



Fikirləşəndə ki, «Suvar» ansamblının 20 yaşı tamam olur, övladı 20 yaşına çatan ananın keçirdiyi hissləri yaşayıram. Ötən illər kino lenti kimi gözlərimin önündə canlanır. Yuxusuz gecələrim, saysız-hesabsız həyəcanlarım, sevinclər və sarsıntılar, ümüdsizliklər və qələbələr, bəzən meydanda tək qalmağım, bəzən anlaşılmamağım... Maddi və mənəvi çətinliklərə sinə gərə-gərə inadımda davam etməyim... Məğlub olmamaq, zəif görünməmək üçün səy göstərməyim... Hamıda fədakarlıq hissini görmək arzumun çox zaman uğursuzluqla nəticələndiyini hiss etməyimdən doğan əzablı hissləri özümdən uzaqlaşdırmaq üçün mübarizə aparmağım... Ləzgi xalqının qədim və zəngin musiqi mədəniyyətini, adət-ənənələrini yüksək səviyyədə təbliğ etmək, onu başqa xalqlara da sevdirmək üçün bütün bunlara davam gətirməli idim.

Ansambl yaratmağın, musiqi kollektivini idarə etməyin nə demək olduğunu bu yaradıcılıq sahəsi ilə məşğul olanlar bilir. Burda şərhlər acizdir. 20 ilə gəldikdə isə, bu, bir igidin ömrüdür. Bu 20 ildə həmişə istedadlar sorağında olmuşam. Tək istedadlı yox, eyni zamanda zəngin mənəvi dünyası olan gənclər axtarışında bulunmuşam. Belələri mənə qol-qanad verib.

«Suvar» mənim əsərimdir. Onun bir-birindən maraqlı bölmələri var: Zaur Musayev bölməsi, Cavahir Abdulova bölməsi, Zavir Nəcəfov bölməsi, Gülnara Qaraxanova bölməsi... Orada Cəmilə Zalovanın, Rəşad İbrahimovun, Elvina Heydərovanın, Roza Hacımuradovanın, Anar Butayevin, Sakin Vəlimətovun, Alfiya Rüstəmovanın, Alviya Həsənovanın, Səbinə Davidovanın, Mirvari Şıxovanın və başqalarının öz yerləri var. Bu əsərin qəhrəmanları «Suvarın» üzvləridir. Onlara mənim qədər kim bələddir? Bu gənclərin istedadı və zəhmətkeşliyi qarşısında heyrətə gəlməmək mümkün deyil.

Bu gün fəxrlə deyə bilərəm ki, «Suvar» məktəbdir. Qafqaz ruhunu qoruyub saxlayan, ləzgi vüqarını təbliğ edən, vətənpərvərlik hisslərini möhkəmləndirən məktəb. Onun məzunları ləzgi xalqının incəsənətinə vurğun zəhmətkeş və fədakar gənclərdir.

«Suvar» böyük bir ailədir. Onun üzvlərinin bir-biri ilə doğmalaşdığını görmək xoşdur. Toylarda, bayramlarda onların bir yerdə şənlənmələrinə, çətində, darda bir-birinə arxa olmalarına sevinməmək mümkün deyil. Yetirmələrimizin «Suvarın» adını fəxrlə çəkdiklərini gördükcə fərəhlənirik.

Bu gənclər mənə «Suvar» üçün fədakarlıqlar etməyi öyrətdilər. Qədim xalq mahnılarını yenidən işləməyə, onların sözlərini zənginləşdirməyə, solistlərin hər biri üçün mahnılar bəstələməyə, xoreoqraflarla birgə yeni quruluşlu rəqslər hazırlamağa, konsertlər üçün ssenarilər yazmağa, rejissorluq etməyə, səhnə kostyumları tikdirməyə və başqa saysız-hesabsız qayğılar çəkməyə həvəsləndirdilər. Bütün bunları bir yerdə, öz gücümüzlə edirdik. Etiraf edim ki, bəzən qürur hissi bizə mane olurdu. 20 il ərzində yalnız iki dəfə - «Samur» qəzetinin 20 illik yubileyi qeyd olunanda və bu günlərdə - «Suvarın» 20 illik yubileyini keçirmək üçün təmənnasız bina üçün ağız açdıq. Mədəniyyət və Turizm Nazirliyi arzumuzu yerinə yetirdi.

«Suvarın» necə uğurlu yol keçdiyini hiss etmək üçün «Samur» qəzetinin səhifələrini vərəqləmək kifayətdir. «Samur» «Suvarın» 20 illik fəaliyyətini güzgü kimi əks etdirib. Əslində o, ansamblın tarixini yaradıb. Respublikamızın bir sıra qəzetləri də kollektivimizin uğurlarına səhifələrində səxavətlə yer ayırıb.

Bir şey şəksizdir ki, «Suvar» əsl qiymətini hələ almayıb. Onun gördüyü işlərə yetərincə dəyər verilməyib. İllər ötəcək, ansamblın fəaliyyəti, onun xalq adət-ənənələrinə söykənən süjetli konsert-tamaşaları, təkrarsız ifaları dönə-dönə xatırlanacaq.

Bu gün mən «Suvarın» xalq sevgisi qazanmasında zəhməti olan hər kəsi ürəkdən təbrik edir, onlara minnətdarlığımı bildirirəm. Əzizlərim, siz bu 20 ildə Azərbaycanın zəngin musiqi dünyasına bənzərsiz rəng qatdınız. Gözəlliyiniz, gəncliyiniz, həyat eşqiniz, istedadınızla çoxmillətli respublikamızın mədəniyyət aləminə etnoqrafik bənzərzislik gətirdiniz. Sizi tək ləzgilər yox, respublikamızın bütün xalqları sevdi.

Mən sizin hər birinizə bağlandım və bu məhəbbəti qəlbimə yazdım. Lakin qəlbi hər kəs oxuya bilmir. Ona görə də qərara gəldim ki, bu kitabı ərsəyə gətirim. Məni maddi dəyərlər heç zaman cəlb etməyib. Əksinə, bacardığım hər şeyi «Suvar» üçün etdim. Bu kitabı da öz arzumla ərsəyə gətirdim, istədim ki, sizin gördüyünüz böyük işləri bu kiçik kitabda əks etdirim, qoy o, məndən sizə yubiley hədiyyəsi olsun. Ləzgi xalqının mədəniyyətinə xidmət etdiyinizə, onu daha da zənginləşdirdiyinizə görə hər birinizə təşəkkür edirəm. Bu kitaba sizin fəaliyyətinizin kiçik anları düşüb. Amma hər birinizə böyük məhəbbət insanların ürəyindədir.

# ANSAMBLIN YARANMA TARİXİNDƏN

«Suvar» Ləzgi Mahnı və Rəqs Ansamblının əsası 1996-cı ilin iyununda Bakı şəhərində qoyulmuşdur. Ləzgi xalq mahnı və rəqslərini yaşatmağı qarşısına məqsəd qoyduğunu elan edən kollektivin ilk konserti 1997-ci ildə Bakının Gənc Tamaşaçılar Teatrında Əhməd Qurbanov, Dilbər Ağayeva, Ruslan Pirverdiyev, Mahirə Şirinova, Leyla Canmirzəyeva və Ruslan Şeydayevin iştirakı ilə keçirilmişdir. Sonralar «Suvara» Rəşad İbrahimov, Roza Hacımuradova, Cəmilə Zalova, Cavahir Abdulova və Elvina Heydərova kimi istedadlı ifaçılar qatıldılar. Ansambla şöhrət gətirənlər arasında klarnet ifaçısı Zaur Musayevin xüsusi yeri vardır.

Ansamblı yaradıb ona rəhbərlik edən Sədaqət Kərimovanın səyləri nəticəsində repertuara «Şarvilinin toyu», «Şarvilinin istəklisinin tərifi», «Ləzgi qızı», «Peyker baxa», «Perizada», «Dallay», «Suna can», «Adaxlı», «Mahi dilbər can», «Dağdakı yar», «Şahsənəm», «Dağlar», «Sarı yarpaqlar», «Şirin-şirin» və sair ləzgi xalq mahnıları daxil edilmişdir. S.Kərimovanın bəstələdiyi 100-dən çox mahnı ansamblın repertuarını daha da zənginləşdirmişdir. Onun «Lezginka çal», «Assa», «Qusar», «Şahdağ çiçəyi», «Sevgilim», «Şamil dağı», «Mənim doğma elim», «Ana dili», «Nənə», «İstəkli yar» kimi mahnıları ansambla şöhrət gətirmişdir.





2004-cü ildə S.Kərimova «Suvarın» nəzdində rəqs məktəbini yaratdı. Adlı-sanlı xoreoqraf Sənan Hüseynli burada həvəskarlara rəqsin sirlərini öyrətməyə başladı. Sonralar məktəbə tanınmış xoreoqraf Zeynal Cigərxanov dəvət olundu.

2006-cı ildə Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində 10 illik yubileyini təntənə ilə qeyd edən ansambl öz repertuarı ilə tamaşaçıları heyran etdi. Z.Cigərxanovun quruluş verdiyi «Gənclik», «İgidlər», «Görüş», «Bulaq başında» kimi süjetli rəqslər gurultulu alqışlarla qarşılandı. S.Kərimovanın xalq folkloru ənənələri əsasında yaratdığı «Qarılar», «Kəpənəklər», «Dem», «Qu quşları» rəqsləri milli koloriti ilə yadda qaldı. Son illər Zeynal Cigərxanovla yanaşı Gülnarə Bayramova və Ruslan Tokbulatov da ansamblla sıx əməkdaşlıq edib.

Kollektiv Ankara, Moskva, Sankt-Peterburq, Yaroslavl və başqa şəhərlərdə konsertlər verib. 2009-cu ilin may ayında Türkiyənin TRT kanalının dəvəti ilə bu ölkədə olmuş kollektiv haqqında həmin kanal tərəfindən bir saatlıq film çəkilib nümayiş etdirilib.

Ansambl respublikamızda və onun hüdudlarından uzaqlarda keçirilmiş bir sıra festivallarda maraqlı proqramlarla çıxış edib.

Ansamblın rəhbəri S.Kərimova «Suvar» ansamblının 5 musiqili albomunu buraxdırmış, Azərbaycan ləzgilərinin həyatından bəhs edən «Mənim doğma elim» adlı hər biri iki saatlıq iki musiqili-sənədli film ərsəyə gətirmişdir.

2011-ci ildə «Suvar» Ləzgi Mahnı və Rəqs Ansamblı Türkiyənin Ankara şəhərində keçirilən Uluslararası Folklor Festivalında Azərbaycanı təmsil etmişdir. Ankaranın Etimesud bələdiyyəsinin keçirdiyi bu festivalda türk dövlətlərinin folklor kollektivləri və Türkiyənin tanınmış sənətçiləri iştirak etmişlər. Sentyabrın 10-da festivalın təntənəli açılışı olmuş, sentyabrın 11-də isə 100 min nəfərdən artıq tamaşaçı tutan bələdiyyə meydanında «Suvar» ansamblının möhtəşəm konserti olmuşdur. Müğənnilərdən Cavahir Abdulovanın və Cəmilə Zalovanın ifasında Azərbaycan və türk mahnıları, rəqqasların ifasında coşqun ləzgi rəqsləri gurultulu alqışlarla qarşılanmışdır. Etimesud bələdiyyəsinin sədri və Azərbaycanın Ankaradakı səfiri Faiq Bağırov tribunaya qalxaraq maraqlı çıxışa görə ansambla minnətdarlıq etmiş, «Suvarın» bədii rəhbəri S.Kərimovaya xatirə hədiyyəsi təqdim etmişlər.

Həmin il respublika mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin sərəncamı ilə ansambla «Xalq kollektivi» fəxri adı verilmişdir.

2012-ci ildə ansambl Azərbaycan Dövlət Opera və Balet Teatrının səhnəsində 15 illik yubileyini təntənə ilə qeyd etmişdir.

# ОБ ИСТОРИИ АНСАМБЛЯ

На склонах Шахдага, далеких от человеческого взора, на высоких холмах, простираются удивительной красоты альпийские луга, усыпанные радугой цветов. Эти природные ковры на лезгинском языке называются «сувар». В лезгинской мифологии альпийские луга считаются символом красоты, недосягаемости и чистоты. Народные праздники в лезгинском языке также обозначаются словом «сувар».

Именно поэтому, когда в 1996 году писатель-журналист Седагет Керимова создала ансамбль, она назвала его «Сувар». Идея создания ансамбля была продиктована желанием наполнять сердца людей любовью к народной музыке, дарить праздничное настроение. Влюбленная в богатую историю, фольклор и музыку лезгинского народа С.Керимова приступила к поискам талантливых музыкантов. Было очень трудно собрать в одном коллективе действовавших до тех пор отдельно музыкантов, требовать от них профессионального, синхронного исполнения, знания народных песен и танцев. В течение года десятки музыкантов приходили и уходили, сменяя друг друга.

Наконец, после напряженных репетиций, длившихся целый год, весной 1997 года в Баку, в Театре Юного Зрителя, состоялся первый концерт «Сувара». Залбыл пропитан атмосферой радости и веселья. Когда зазвучала «Лезгинка», зрительский зал «взорвался» аплодисментами. На концерте, ведущим которого был Руслан Шейдаев, показали свое мастерство исполнители Ахмед Курбанов, Дильбер Агаева, Махира Ширинова, Руслан Пирвердиев, Лейла Джанмирзоева. Концерт завершился коллективным танцем участников ансамбля, представителей лезгинской общественности и гостей вечера - на сцене.

С первым же концертом «Сувар» завоевал народную любовь. Из всех уголков республики ансамблю посыпались приглашения выступить с концертом.

В первые годы с ансамблем сотрудничали гитарист Тофик Мамедов, аккордеонист Гусейн Муслимов, исполнитель на ударных инструментах Габиль Ибрагимов, тарист  Мамед Агасиев и другие. Ансамбль сотрудничал также с талантливыми вокалистами Рубабой Байрамбековой и Русланом Пирвердиевым. Многие успехи ансамбля связаны с именем выпускника Азербайджанской Государственной Консерватории Заура Мусаева. Старинные лезгинские мелодии, которые он мастерски исполняет на кларнете, зурне и свирели, неизменно украшают репертуар «Сувара». Талантливый гармонист, теперь уже синтезаторщик, выпускник Азербайджанского Государственного Университета Искусств Афган Джамалуддинов привнес в ансамбль новую волну ритмичных лезгинских мелодий.

Настоящую известность ансамблю принесли неповторимые голоса солистов, долгие годы сотрудничающие с ансамблем. Это Решад Ибрагимов, Джавахир Абдулова, Джамиля Залова, Роза Гаджимурадова, Эльвина Гейдарова. Одной из первых участниц ансамбля является Роза Гаджимурадова, которая своим голосом смогла передать колорит старинных лезгинских песен. Переход ансамбля на новый профессиональный уровень связан с именем выпускника Азербайджанской Государственной


**Ахмед Курбанов**


**Дилбер Агаева**


**Руслан Пирвердиев**


**Махира Ширинова**


**Руслан Шейдаев**

Консерватории, драматического тенора Решада Ибрагимова.

Неповторимый голос Джамили Заловой, звенящий словно горные водопады зрители полюбили с первого же ее исполнения. Позже ансамбль пригласил к сотрудничеству студентку Бакинской Национальной Консерватории с лирическим сопрано Джавахир Абдулову. Она оказалась не только талантливой певицей с бархатным голосом, но и хорошей ведущей. Самая молодая исполнительница ансамбля - Эльвина Гейдарова оригинальной манерой исполнения и широким голосовым диапазоном, покорила сердца поклонннников «Сувара».

Репертуар «Сувар»а с первого дня развивается по двум направлениям: народные песни и композиторские сочинения С. Керимовой. Как результат этой кропотливой работы ансамбль выпустил 5 альбомов.

С ростом славы ансамбля, появилась необходимость показать танцевальную культуру лезгин. Так, в 2004 году при ансамбле «Сувар» была открыта школа танцев «Лезгинка», где талантливый хореограф Санан Гусейнли стал учить лезгинскую молодежь азам кавказских танцев. Но, вскоре, в связи с нехваткой времени он сложил с себя полномочия. С приходом в школу ветерана Азербайджанского Государственного Ансамбля Танца Зейнала Джигерханова, в школе наметилось заметное оживление. Наконец, совместными усилиями художественного руководителя и хореографа была выбрана первая танцевальная труппа для ансамбля «Сувар».

В 2006 году в Азербайджанском Государственном Академическом Театре Оперы и Балета состоялся юбилейный концерт, посвященный десятилетию ансамбля. Песни в исполнении Решада Ибрагимова, Джавахир Абдуловой, Руслана Пирвердиева и Эльвины Гейдаровой зрители встретили бурными овациями. Ценители искусства по достоинству оценили танцы «Молодость», «У родника», «Встреча» в постановке Зейнала Джигерханова. Полюбились также танцы «Старушки», «Бабочки», «Дем», «Лебеди», созданные Седагет Керимовой на фольклорной основе. Что касается «Старушек», этот танец до сих пор считается изюминкой танцевального репертуара ансамбля.

На юбилейном концерте свое танцевальное мастерство показали Айсель Рустамова, Сария Шахмурадова, Асият Давудова, Егяна Гасанова, Лейла Муртузаева, Аида Алиева, Фарид Шахмурадов, Сакин Велиметов, Завир Наджафов, Махмуд Багишев, Мехман Гусейнов, Заур Джамалов и другие.

Успехи танцевальной школы приумножила также хореограф Гюльнара Байрамова. С ее приходом в школе начали функционировать 3 группы: 2 взрослых и одна детская.

За последние годы «Сувар» выступал в самых



**Тофик Мамедов**



**Рубаба Байрамбекова**

красивых концертных залах города Баку: в Театре Песни имени Р. Бейбутова, в Азербайджанской Государственной Филармонии, в Русском Драматическом Театре имени С. Вургуна, в Азербайджанском Государственном Драматическом Театре, во Дворце Культуры имени Шахрияра, в Азербайджанском Государственном Академическом Театре Оперы и Балета.

В 2009 году канал TPT Турецкой Республики пригласил ансамбль «Сувар» в Анкару. Передача, в которой рассказывалась об ансамбле, транслировалась в 37 странах мира. С. Керимова рассказала о лезгинах, об их самобытной культуре, о богатом искусстве народа. Исполненные Решадом и Эльвиной песни,



**Габиль Керимов**



**Гусейн Муслимов**



**Габиль Ибрагимов**



Заур Мусаев

в сопровождении инструментального ансамбля «Сувар», никого не оставили равнодушными.

Сегодня, роль «Сувара» в пропаганде лезгинской культуры трудно переоценить. Ансамбль может гордиться лезгинскими соловьями Решадом, Джавахир, Джамилей, Эльвиной и Розой. Заур и Афган добились признания как профессиональные исполнители, чьими усилиями лезгинская инструментальная музыка поднялась на новый уровень. Ансамбль взрастил таких талантливых танцоров как Завир Наджафов, Сакин Велиметов, Махмуд Багишев, Анар Бутаев, Бейлер Дадашов, Турал Самедов, Рауф Гейдаров, Гаджи Гаджиев, Аледдин Алиев, Халида Гаджимурадова, Альфия Рустамова, Гюнай Джигерханова, Ираида Гамзатова, Альвия Гасанова, Мирвари Шихова, Гюльнара и Диляра Карахановы, Сабина Давидова, Сунаханум Султанова, Халида Муртузаева.

Отрадно, что сегодня талантливые воспитанники школы танцев Анар Бутаев, Турал Самедов, Сакин Велиметов, Бейлер Дадашов сами ставят танцы. Особенно хочется отметить Гюльнару Караханову и Сабину Давидову, которые с любовью передают свой опыт девушкам, влюбленным в танцы. За последние годы ансамблю не раз довелось отличиться яркими выступлениями на республиканских фестивалях.



Афган Джамалуддинов

В 2011 году Министерством Культуры и Спорта Азербайджана ансамблю было присвоено почетное звание «Народный коллектив». В том же году ансамбль достойно представил Азербайджан на международном фестивале в Анкаре. В десятидневной фестивальной программе один день был посвящен ансамблю «Сувар», придавшему фестивалю в Турции кавказский колорит.

Сегодня «Сувар» считается главным показателем культуры и искусства лезгинского народа в Азербайджане. Коллектив объединяет десятки талантливых молодых людей. Это большая семья, влюбленная в древние традиции своего народа, семья, которая безвозмездно служит искусству. Это большой дружный коллектив талантливых молодых людей, самой большой наградой для которых являются зрительские аплодисменты.



# ANSAMBLIN YARANMASINA DAHA BİR NƏZƏR



**Fətullah Rəhimxanov, ləzgi xalq mahnılarını toplayıb nota köçürmüş bəstəkar**

Son illər məndən soruşanda ki, neçə övladın var, «dörd» deyə cavab verirəm: Fərhad, Sevda, «Samur», «Suvar». Məni yaxından tanıyanların dodaqlarına o saat təbəssüm qonur. Onlar anlayırlar ki, iki övladımla bir cərgəyə «Samur» qəzetini və «Suvar» ansamblını qoymağım təsadüfi deyil. Axı həyatımın uzun illəri, əzablı-əziyyətli anları, acılı-şirinli xatirələri onlarla bağlıdır.

Necə oldu ki, «Suvarı» yaratmaq qərarına gəldim? Yadımdadır, nəğmə müəllimimiz, bəstəkar Fətullah Rəhimxanov məktəbimizdə üçsəsli xor yaratmışdı. Bu, nəinki Qusarda, eləcə də bölgəmizdə analoqu olmayan xor idi. Kollektiv 100 nəfəri birləşdirirdi. Xorda oxumaq dan hamımızın xoşu gəlirdi, burada əhval-ruhiyyəmiz yüksəlir, bizi şad hisslər bürüyürdü. Repertuarımızda Azərbaycan və ləzgi dillərində mahnılar var idi.

Bir dəfə yeni bir ləzgi mahnısı üzərində çalışırdıq. «Əziz baba, böyük rəhbər» sözləri ilə başlanan, V.İ.Leninə həsr olunmuş bu mahnını eşidəndə mən təəccübümü gizlədə bilmədim:

- Bu ki, ləzgi xalq mahnısıdır, Şarvili[1] haqqındadır. Anamdan onu çox eşitmişəm.

Fətullah müəllim gülümsədi:

- Elədir, du mahnını xalq havası əsasında hazırlamışam.

- Axı onun gözəl sözləri var idi.

- Mahnını zamana uyğunlaşdırmağı tələb ediblər. – Fətullah müəllimin gözlərində kədər dolaşdı.

Nə gizlədim, bu «uyğunlaşdırma» heç xoşuma gəlmədi. Həmişə eşitdiyim və sevdiyim xalq mahnısı bu cür müasirləşdirmədən itirmişdi.

Чи мехъер я, ая кьуьлер,
Ая кьуьлер, я чан эллер, -
sözlərinin Leninin xatirəsinə hörmət əlaməti olaraq
Азиз буба, чIехи регьбер,
На къалурна чаз дуьз рекьер, - kimi dəyişdirilməsi mahnının ruhunu öldürmüşdü. Daha xora getmədim.

Mən rayon mədəniyyət evində Qəni Qəniyevin rəhbərlik etdiyi «Lezginka» ansamblının da solisti idim. O vaxt bu istedadlı rəqqasın kollektivində 20-dən çox oğlan və qız rəqs edirdi. Məşqlər çox vaxt aparsa da onlarsız yaşaya bilmirdim. Ən çox isə rəqsə vurğun idim.



**Rəhimət Hacıyeva, ləzgi bülbülü, Dağıstanın xalq artisti**

7-ci sinfi başa vuranda valideynlərim mənə rəqsə getməyi qadağan etdilər. Anamın «Bir artistimiz çatmırdı» sözləri məni elə sarsıtdı ki, xeyli müddət özümə gələ bilmədim. Çünki rəqs məndən ötrü sehirli aləm, böyük səadət idi. İndi məni bu səadətdən məhrum edirdilər. Bu qadağa həyatda aldığım ən böyük zərbə idi. Bir neçə ay bu mənəvi zərbədən özümə gələ bilmədim. Keçirdiyim acılar məni qələmə sarılmağa məcbur etdi. Məni sarsıdan hər şeyi vərəqlərə danışmağa başladım.

1995-ci il parlament seçkilərində iştirak etmək üçün Qusar rayonundan namizədliyimi irəli sürəndə, vəkillərimdən biri mənim nəğmə müəllimim, 67 yaşlı Fətullah Rəhimxanov idi. Üç oğlunu vaxtsız itirmiş, qızı vətəndən uzaqlarda yaşayan bu ağsaqqal və onun həyat yoldaşı İzafə xala mənə övladları kimi bağlanmışdılar. Tez-tez onlara qonaq gedirdim. Saatlarla xalq musiqisi haqqında söhbətlər edirdik. Fətullah müəllim savadlı və dərin insan idi. Qusar rayonunu kəndbəkənd gəzib 79 ləzgi xalq mahnısını və rəqsini toplayaraq nota köçürmüş bu insanın ürəyi incəsənətə məhəbbətlə dolu idi və bu sevgini başqalarına da təlqin edirdi.

Həmin il Qusar rayon mədəniyyət evində keçirilən yaradıcılıq gecəmdə səslənən mahnılarıma ilk xeyir-duanı da o verdi. Xoşbəxtlikdən, Faiq Qardaşovun rəhbərlik etdiyi «Qayi bulaq» ansamblının solisti Turxanın ifasında səslənən «Samur», «Lezginkadal iliga», «Sa dertni avaçiz» kimi mahnılarımı qusarlılar gurultulu alqışlarla qarşıladılar.

Yaradıcılıq gecəsindən sonra Fətullah müəllim məni təbrik edərək öz arzularını dilə gətirdi. «Mahnılarını çox bəyəndim. Yazmamağa ixtiyarın yoxdur». Bu sözlər mənə qol-qanad verdi.

Seçkilərdə parlaq qələbə çalmağıma baxmayaraq, deputat ola bilmədim. Üstəlik seçki kampaniyamda fəal iştirak edən insanlar rayon rəhbərliyi tərəfindən repressiyalara məruz qaldılar. Keçirdiyim həyəcanları ifadə etmək çətindir. Gücüm yalnız həcv yazmağa çatırdı. Lakin hirsim heç cür soyumurdu. Bir neçə ay sonra əhval-ruhiyyəmdə qəribə bir

1 Ləzgi xalq qəhrəmanlıq eposu

dəyişiklik baş verdi. Seçki kampaniyası zamanı baş vermiş hadisələr, yaradılan saysız-hesabsız maneələrə baxmayaraq, qusarlıların böyük məhəbbətlə, təəssübkeşliklə məni dəstəkləmələri kino lenti kimi gözlərimin önündən keçdi. Mənim deputat olmağımdan ötrü fədakarlıqla çalışmış bu insanlara borcumu necə qaytara bilərəm? Vəkil olmadan xalqa məhəbbəti, ona övladlıq borcunu ödəmək mümkün deyilmi? - deyə öz-özümə sual verirdim. Nəhayət, nə edəcəyimi anladım: ansambl yaratmaq qərarına gəldim. Ləzgi xalqının mədəniyyətini, adət-ənənələrini böyük səhnələrdən təbliğ edəcək bu ansamblın repertuarını ləzgi xalq mahnı və rəqsləri, eləcə də indiyədək heç kəsin eşitmədiyi yeni bəstələr təşkil etməli idi. Çünki ürəyim başdan-başa musiqi içində idi. Gecə-gündüz mahnı yaradıcılığı ilə məşğul olurdum.

Üç ay çəkən gərgin axtarışlardan sonra 9 nəfərdən ibarət musiqiçilər qrupunu bir araya gətirib H.Sarabski adına mədəniyyət sarayında onlarla məşqlərə başladıq. Tofiq Məmmədov, Ramazan Zahirov, Hüseyn Müslümov, Qabil İbrahimov, Faina Qurbanova və başqa musiqiçilərlə həftədə iki dəfə məşqlər edirdik. İlk ifaçılar kimi Əhməd Qurbanovu, Dilbər Ağayevanı, Ruslan Pirverdiyevi, Mahirə Şirinovanı və Leyla Canmirzəyevanı dəvət etmişdim.

Əslində bu məşqlər mənim inadcıllığım və tələbkarlığım sayəsində baş tuturdu. Adətən toylarda çıxış edən musiqiçilərdə məsulliyyət və təəssübkeşlik hisslərinin çatışmadığını müşahidə etmək əzablı idi. Məşqləri buraxmaq və ya gecikmək onlarda adət halı almışdı. Düzdür, Tofiq Məmmədov, Qabil İbrahimov və Faina Qurbanova istisna təşkil edirdilər. Onlar mənim əsas istinadgahlarım idilər. Tofiqin istedadını və alicənablığını xüsusi qeyd etmək lazımdır.

Ansamblı idarə etmək, musiqiçilərlə və müğənnilərlə dil tapmaq, repertuar seçmək, məşqlər aparmaq böyük zəhmət və dözüm tələb edirdi. Səhnə mədəniyyətinə, səhnə geyiminə, mahnılarda xalq ifa tərzinə önəm vermək, sözlərin düzgün tələffüzünə diqqət yetirmək lazım idi.

Məşqlər üçün daimi yerimizin olmadığını eşidəndə Qusarın tanınmış ziyalısı İmran Rzayev bizə köhnə Fioletov adına zalda məşğul olmağa icazə alanda sevincimizin həddi-hüdudu yox idi.

1997-ci ilin iyunun 1-də Bakının Gənc Tamaşaçılar Teatrında “Suvar” ansamblının ilk konserti keçirildi. Zal ağzına kimi dolu idi. Ləzgi xalq musiqisi üçün darıxmış insanlar həyəcanla pərdənin açılacağı anı gözləyirdilər. «Lezginkanın» ruhu oxşayan sədaları altında pərdə açılanda, səhnədə 11 nəfər musiqiçi əyləşmişdi. Ağ köynək geyinib, qara kəpənək taxmış çalğıçılar səhnəyə çox yaraşırdılar. Həmin axşam Əhməd Qurbanovun, Ruslan Pirverdiyevin, Mahirə Şirinovanın, Dilbər Ağayevanın və Leyla Canmirzəyevanın ifasında səslənən «Suna çan», «Kay dilber», «Lezgid ruş», «Zağadurzağa» ləzgi xalq mahnıları, o cümlədən mənim bəstələrim olan «Lezginkadal iliqa», «Yargunat», «Bulaxdal», «Kani yar» mahnılarını tamaşaçılar gurultulu alqışlarla qarşıladılar. Konserti Ruslan Şeydayev aparırdı.

Qusarlı xalq sənətkarı Ramazan Ramazanovun zaldan tütəkdə xalq mahnılarını ifa etməsi, balaca Mənzər Məlikməmmədovanın ləzgicə şeir deməsi konsertin gedişinə təbiilik, səmimiyyət qatdı.

Konsertin sonunda ansamblın bədii rəhbəri kimi səhnəyə çıxanda minnətdar tamaşaçılar məni alqışlara və gül dəstələrinə qərq elədilər. Həyatımda bu qədər çiçək görməmişdim. Heç kim evə getmək istəmirdi. Bunun səbəbini dərhal anladım: axı ləzgilərin şənlik məclisləri rəqssiz ötüşmür. Musiqiçilərə işarə etdim ki, şux bir hava çalsınlar. «Samur» Ləzgi Milli Mərkəzi idarə heyətinin sədri Əli Musayevi, onun müavini Muradağa Muradağayevi, Dağıstanın Azərbaycandakı nümayəndəliyinin rəhbəri Haşım Aslanovu, tanınmış yazıçı-jurnalist Müzəffər Məlikməmmədovu, «Bakinski raboçiy» qəzetinin məsul katibi Bəybala Nemətovu və başqalarını səhnəyə dəvət etdim. Onlarca ziyalı dəvət gözləmədən səhnəyə qalxdı. Hamı rəqsə qoşuldu. Ansamblın solistləri ilə tamaşaçılar bir anda səhnəni rəqs meydançasına çevirdilər. Onların arasında həyat yoldaşım Mübariz və qızım Sevda da var idi. Zal səhnədəkiləri ayaq üstə alqışlayırdı. Bunlar unudulmaz anlar idi.

Həmin gün anladım ki, insanların bu cür səmimi ülfət və ünsiyyətə ehtiyacları var. «Suvar» onlara mənəvi ehtiyaclarını təmin etməkdə kömək etmişdi. Konsertə gəlmiş digər xalqların nümayəndələri də ləzgi xalqının incəsənəti ilə yaxından tanış olmaqda belə konsertlərin əhəmiyyətini qeyd edirdilər.



# «SUVAR» ANSAMBLININ BƏDİİ RƏHBƏRİNƏ



Hörmətli Sədaqət xanım!

Rəhbərlik etdiyiniz «Suvar» Ləzgi Mahnı və Rəqs Ansamblının 10 illik fəaliyyətini yüksək qiymətləndirir və Sizi bu yubiley münasibəti ilə təbrik edirik. Azərbaycanda tarixən yaşayan millətlər arasında olan münasibətlər hər zaman dostluq və qardaşlıq səviyyəsində olmuşdur. Mövcud münasibətlərin möhkəmləndirilməsi, milli azlıqların mədəniyyətlərinin qorunub saxlanılması məsələləri daim Azərbaycan hökumətinin diqqət mərkəzindədir.

Respublikada yaşayan ləzgi millətinin özünəməxsus incəsənətinin inkişafı işində «Suvar» Ləzgi Mahnı və Rəqs Ansamblının böyük əməyi vardır. Sizin 2005-ci ildə «Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi» adına layiq görülməniz fəaliyyətinizin məntiqi nəticəsidir. Bütün bunları nəzərə alaraq, Sizə və rəhbərlik etdiyiniz kollektivin bütün üzvlərinə bu şərəfli işin gələcəkdə də uğurla davam etdirilməsində müvəffəqiyyətlər və nailiyyətlər arzu edirik.

**Hörmətlə,**
**Əbülfəs QARAYEV,**
**Azərbaycan Respublikasının**
**Mədəniyyət və Turizm naziri,**
**28 mart 2006-cı il**

# ХУДОЖЕСТВЕННОМУ РУКОВОДИТЕЛЮ АНСАМБЛЯ «СУВАР»

Дорогая Седагет ханум!

Многие годы, Ваши многожанровые литературные произведения, яркие лезгинские песни, созданные на новых ритмоинтонациях, Ваша деятельность организатора и художественного руководителя ансамбля «Сувар» восхищают благодарных поклонников.

Каждый раз, когда слушаю ваши замечательные стихи, песни, основанные родным лезгинским мелосом и высоким композиторским мастерством, в душе говорю себе: «Дай Аллах ей долгих лет жизни».



Ваш ансамбль «Сувар» намного выше, чем наши некоторые государственные коллективы. «Сувар» - самый профессиональный лезгинский ансамбль. Желаю Вам новых взлётов в многогранном творчестве во славу неповторимого искусства народов Дагестана и Азербайджана.

**С уважением,**
**Магомед ГУСЕЙНОВ,**
**Заслуженный деятель**
**искусств РФ, лауреат**
**Государственных премий РД**

**Planetimizin milli palitrasının rəngarəngliyi təbiətin və onun qanunlarının bizə bəxş etdiyi böyük sərvətdir. Genetik rəngarəngliyə əsasən milli rəngarənglik homosapiensin populyasiyasını taleyin zərbələrindən qorumağa xidmət edir.**

**Hər milli mədəniyyət, hər adət-ənənə bəşəriyyətin yaddaşıdır. Milli rəngarəngliyin və mədəniyyət rəngarəngliyinin itirilməsi genetik rəngarəngliyin itirilməsinə bərabərdir ki, bu da bəşəriyyətin gələcəyi üçün ölüm təhlükəsi deməkdir.**

**N.N.Moiseev**

***«Suvarın» necə uğurlu yol keçdiyini hiss etmək üçün «Samur» qəzetinin səhifələrini vərəqləmək kifayətdir. «Suvarın» 20 illik fəaliyyətini «Samur» güzgü kimi əks etdirib. Əslində o, ansamblın tarixini yaradıb.***

# ЛЕЗГИ МАНИДИН СУВАР



**Муьзеффер Меликмамедов, «Сувар» ансамблдикай виридалайни гзаф макъалаяр кхьей къелемэгъли я.**

Виш агъзурралди лезгияр яшамиш жезвай Бакуда лезги манидин сувар тир. Инсанри лугъуз-хъуьрез сада-сад тебриксавай: «Квез сувар мубаракрай!» Суварихъ атанвайбур Бакудин Жегьил Тамашачийрин Театрдин залда гьакьзавачир. Абуруз и шадвилин гьиссер бахшнавайди цIийиз тешкилнавай «Сувар» ансамбль тир.

Сифте яз халкьдин вилик концерт кьиле тухузвайди - Азербайжандин лезги радиодин диктор Руслан Шейдаев экъечIна. Ада ансамбль арадал атуникай ва коллективди вичин вилик тунвай макьсаддикай баянар гайидалай гуьгъуьниз залдиз лезги сюитадин секин, инсандин фикирар яргъалди тухудай, уьмуьрдикай веревирдериз мажбурдай хьтин ширин авазар чкIана.

Дилбер Агъаевади «Перизада», Руслан Пирвердиева «Магьи дилбер чан», Магьире Шириновади «Суна чан», «Кай дилбер», Агьмед Къурбанова «Лезгид руш», «Загъадурзагъа», «Варз алай йиф» хьтин халкьдин манияр лагьайла залда сакIани капар ягъун акъвазар жезвачир.

Бакуда «Сувар» ансамбль арадал атун чIехи вакъиа я. Икьван гагьда Бакуда кьилди лезги ансамбль тахьайди фикирда кьуртIа, гьакIни, и коллектив анжах Бакудин лезгийрикай, жегьил гадайрикайни рушарикай туькIуьрнавайди фагьумайтIа, адан кьетIенвал ачухдиз ашкара жезва. Ансамбль тешкилна арадал гъайиди чи тIвар-ван авай камалэгьли Седакъет Керимова я. Чи халкьдиз и ватанперес тават хъсан журналист, кхьираг, шаир хьиз чида. На лугъумир, адахъ композиторвилин агалкьунарни ава кьван. Ада вичин чIалариз 50-алай гзаф манияр туькIуьрнава. «Лезгинкадал илига», «КIани яр», «Жедай туш», «Булахдал», «Яргунат» лезги муыкадин дережа хкаждай манияр я. Гьавиляй рикIин сидкьидай лугьуз жеда хьи, чи гьевескар композиторрин жергедиз вичихъ чIехи агалкьунар авай мад са композитор атанва ва идалди чна дамахна кIанзава.

«Сувар» муькуь коллективрилай квелди тафаватлу жезва? И суалдиз С. Керимовади ихьтин жаваб гана: “Чи метлеб рикIелай алатнавай халкьдин маниярни кьулуьнин макьамар агьалийрив агакьарун, алай аямдин виридалайни иер лезги манияр теблигъ авун, гьакIни, халкьдин музыкадикай менфят къачуна, цIийи манияр арадал гъун я. Лезги манидин дережа виниз акъудун патал чна вирида алахъунар сад авуртIа, чи агалкьунар генани чIехибур жеда. Эхиримжи йисара халкьдин манияр кьитдиз ван къвезва. Чаз и татугайвал арадай акъудиз, адан рикI ифирдай авазар, тIебиивал хуьз кIанзава».

ХупI сересдиз лагьанвачни! Ви мурад-метлеб кьилиз акъатрай, Седакъет вах! Вазни хъсан рехъ, «Сувар!»

**Муьзеффер МЕЛИКМАМЕДОВ,**
**«Лезги газет», 15.08.1997.**




**Ансамблдин 15-йисан юбилейдин концертдай. Баку, 2011-йис.**

# SƏN ÜRƏK TARIMI ÇAL, HƏZİN-HƏZİN...

Yolu təsadüfən bu klubdan düşmüşdü. Yeni ləzgi melodiyasının ifası ilə bağlı yaradıcılıq mübahisəsinə etinasız qala bilməyib tarını götürüb musiqiçilərə qoşuldu və bir saat onlarla çaldı. Sonra gəldiyi kimi də xəbərsiz getdi. Amma bu bircə gəlişi ilə hamının urəyində dərin iz qoydu.

Məmməd müəllim ansamblımızla əməkdaşlıq etmək barədə dəvətimizi məmnuniyyətlə qəbul etdi. Artıq onun köməyi sayəsində «Suvar» professional musiqi sahəsində ilk addımlarını atır.

Məmməd Ağasıyev Ə.Bakıxanov adına və «Humayun" xalq çalğı alətləri ansambllarında tar çalıb. hazırda «Muğam» studiyasında konsertmeysterdir.

- Necə oldu ki, ləzgi ansamblı ilə əməkdaşlıq etmək qərarına gəldiniz? - deyə Məmməd müəllimdən soruşuruq.

- Mən ləzgi xalqının qeyrətinə, namusuna, dostluqda sədaqətinə vurğunam. Onların mədəniyyətinə, musiqilərinə də heyranam. «Suvar» artıq mənim həyatımın bir parçasına çevrilib. Ansamblın gələcək uğurlarını indidən görürəm. Həm də ansamblda həddindən artıq səmimi və nəzakətli adamlar çalışır, - deyə o, cavab verir.

Kövrək qəlbli, incə duyumlu, həssas insan olan Məmməd muəllimin poeziyaya və musiqiyə olan məhəbbəti onun bütün varlığından süzülür.

O, həzin, qəmli çağlarında tarını dilləndirir. «Şuştər», «Çahargah» üstə köklənib muğamların sirli dünyasına dalır.



Məmməd Ağasıyev

Bu dünyadan onu nə xanımı Səbirə, nə də istəkli qızları Sevinc, Aynurə və Elida ayıra bilir. Qayğılar başından aşanda, dünyanın qəribə işləri qəlbini ağrıdanda, kədər güc gələndə isə qələmsiz ötüşmək olmur. Ürəyini titrədən poetik duyğuları ağ vərəqlərə düzüldükcə o, sakitlik bulur. Onun duyğularının selindən yaranan şeirləri beləcə «övladlarına» çevrilir.

Məmməd müəllimin üç qızından biri könlünü musiqiyə və musiqiçiyə verib. Azərbaycan Dövlət Konservatoriyasının IV kurs tələbəsi olan Sevinc pianino arxasına keçəndə ata elə bilir dünyanı ona veriblər. O da tarını köksünə sıxır.

Bu günlərdə Məmməd Ağasıyevin anadan olmasının 50 ili tamam olur. Bu münasibətlə onu təbrik edənlər çoxdur. «Suvar» ansamblı isə konsertmeysterinin şərəfinə gözəl bir gecə hazırlayır.

**S. KƏRİMOVA,**
**"Samur" qəzeti, 26.11.1998.**

## XATİRƏ

Dekabrın 6-sı «Suvar» ləzgi instrumental ansamblının üzvləri və pərəstişkarlarının yaddaşında şirin bir xatirə kimi yaşayacaq. Ansamblın konsertmeysteri, Azərbaycanın tanınmış musiqiçisi Məmməd Ağasıyevin 50 illik yubileyinə toplaşanlar o gecə Azərbaycan və ləzgi melodiyalarının sehrinə düşmüşdü. Rübabə Bayrambəyovanın, Əhməd Qurbanovun, Ruslan Pirverdiyevin, Mahirə Şirinovanın, Dilbər Ağayevanın yubilyar üçün ifa etdikləri mahnılar hamıya könül xoşluğu, gözəl ovqat bəxş etdi. Cavid Təbrizlinin şirin Təbriz ləhcəsi ilə oxuduğu ləzgi mahnısı isə hamının ürəyindən oldu.

Həmişə olduğu kimi yenə də güc konsertmeysterə düşdü. O, gənc həmkarlarını tarda müşayiət edirdi. Ansamblın bədii rəhbəri, gecənin təşkilatçısı Sədaqət Kərimova yubilyarın öz ayrılmaz dostuna - tara həsr etdiyi şeirləri oxudu. Tanınmış xanəndə Qaraxan Behbudov öz zəngulələri ilə hamını heyran etdi. Respublika mədəniyyət nazirliyinin məsul işçisi Nazim Bağırov və başqa çıxış edənlər bu unudulmaz gecəni azərbaycan və ləzgi xalqlarının dostluğunun möhkəmlənməsi yolunda yeni bir addım kimi qiymətləndirdilər.

**Roza HACIMURADOVA,**
**«Samur» qəzeti, 17.12.1998.**

## XAÇMAZ SƏFƏRİ

«Suvar» ləzgi vokal-instrumental ansamblının Xaçmaz qastrolu əlamətdar bir bayram ərəfəsinə düşdü. hər yerdə olduğu kimi, Xaçmazda da Milli Qurtuluş Günü təntənə ilə qeyd olunurdu. «Suvarın» konserti bu bayram təntənələrinə yeni bir ahəng verdi. Ansamblın iyunun 13-də Xaçmaz rayon mədəniyyət evində keçirilmiş konserti həm «Suvarın» üzvlərinin, həm də konsertdə iştirak etmiş xaçmazlıların yadında şirin bir xatirə kimi qalacaq.

Ləzgi, azərbaycan, fars, kərkük mahnılarından ibarət proqram tamaşaçıların ürəyincə olmuşdur. Hər musiqi nömrəsindən sonra gurultulu alqışlar yüksəlirdi. Tamaşaçılar Əhməd Qurbanovu, Mahirə Şirinovanı, Ruslan Pirverdiyevi, Ruslan Şeydayevi səhnədən buraxmaq istəmirdilər. Qədim ləzgi mahnılarının yeni ifası, ilk dəfə səslənən bəstəkar mahnılarının şirin melodiyaları həssas və tələbkar xaçmazlılara əsl suvar, yəni bayram əhval-ruhiyyəsi bəxş etmişdir.

Konsert, 22 millətin nümayəndələrinin yaşadığı Xaçmaz rayonunda əsl dostluq və qardaşlıq bayramına çevrilmişdir.

İyunun 14-də isə "Suvar» xudatlılar qarşısında çıxış etmişdir. Bu konsert də əvvəldən axıra kimi tamaşaçı alqışlarının müşayiəti ilə keçmişdir.

**«Samur» qezeti, 18.07.1998.**

# ƏKS-SƏDA



Ansamblın nüfuzunu artıran, ona uğur qazandıran cəhətlərdən biri onun xalqın ruhuna uyğun qədim adət-ənənələrdən bəhrələnməsi və bu sahədə gənclərin qüvvəsindən istifadə etməsidir.

Bununla bağlı ilk anda ləzgi toylarının yaraşığı sayılan «Dem» mərasimi yada düşür. Adətən açıq havada, rəqs yarışması şəklində keçirilən bu mərasimin gözəlliyi, tərbiyəvi əhəmiyyəti, xalqın milli-mənəvi dəyərlərinə söykənməsi sirr deyil. Lakin son illər rayon mərkəzlərində və bir sıra kəndlərdə mərasim evlərinin, şadlıq saraylarının tikilməsi nəticəsində el şənliklərinin məzmununun dəyişməsi demlərin sıxışdırılmasına gətirib çıxarıb. Şəhərdə böyüyən ləzgi gənclərində isə bu xalq adəti haqqında aydın təsəvvür yoxdur.

Bütün bunlar Bakıda gənclər üçün «Dem» keçirməyin vacibliyini gündəmə gətirdi. «Suvar» ansamblının iştirakı ilə təşkil etmək istədiyim gecə «Dem» adətinin gənclər arasında təbliği məqsədi daşıyırdı. 2003-cü ilin sentyabrın 22-də Bakı restoranlarından birinə 70-dən artıq gənc toplaşdı. Mən gecəni açaraq ləzgi xalq adətləri arasında özünəməxsus yeri olan «Demin» özəllikləri haqqında məlumat verdikdən sonra şənliyi aparmaq üçün iki fəal gənci - Sevda Əzizova ilə Camiddin Murtuzayevi dəvət etdim.

Ləzgilərin qədim «Rəqsə dəvət» mərasimi ilə tanışlıq hamının ürəyincə olur. Əlində budaq tutmuş gənc dövrə vurub qızlardan birinin qarşısında dayanır, budağı ona uzadıb qızı rəqsə dəvət edir. İkisi bir yerdə bir qədər rəqs edəndən sonra qız budağı başqa bir oğlana ötürür. Bayaqki oğlan yerinə qayıdır, bunlar birlikdə rəqs edirlər. Beləliklə, budaq əldən-ələ keçir. Hər rəqs edən dəyişdikcə, oyun havası da dəyişir. Olduqca şən və maraqlı keçən rəqs yarışmasında demək olar ki, gənclərin hamısı iştirak edir.

Qədim rəqsin yeni improvizasiyası «Demin» iştirakçılarının ürəyindən oldu. Həmin gecədə keçirilən ləzgi dilinə həsr olunmuş viktorinalar da şənlik yaratdı. Ən maraqlı anlar isə rəqs yarışması zamanı yaşandı. Ən yaxşı rəqqas tituluna hamı yekdilliklə ADU-nun hüquq fakültəsinin tələbəsi Samir Qasımovu layiq gördü. Həmin gecə «Suvarın» çalğısı hamını riqqətə gətirdi.

Dem Bakıda böyük əsk-səda yaratdı. Ondan həvəslənən gənclər estafeti əllərinə alaraq Bakının müxtəlif yerlərində belə tədbirlər keçirməyə başladılar. Tezliklə Rusiyanın bir sıra şəhərlərində də demlər keçirilməyə başlandı.



«Suvar» ansamblı İctimai TV-nin qonağıdır.

## FESTİVAL UĞURLU OLDU

May ayının 26-da Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi tərəfindən Milli Təhlükəsizlik Nazirliyinin Mədəniyyət Mərkəzində «Azərbaycan bizim ümumi evimizdir» devizi altında Azərbaycan Respublikasında yaşayan xalqların və etnik qrupların yaradıcı gənclərinin iştirakı ilə festival keçirildi. Bir-birindən maraqlı və rəngarəng nömrələr təqdim edən ləzgi, yəhudi, rus, tatar, ingiloy icmalarının musiqi kollektivləri öz maraqlı çıxışları ilə zala xoş ovqat gətirdilər. Mahnı və rəqslər alqışlarla qarşılandı.

Ən gurultulu alqışları isə «Suvar» Ləzgi Mahnı və Rəqs Ansamblı qazandı. Ansamblın qızlarının ifa etdikləri «Perizada» xalq mahnısı və rəqsi, eləcə də oğlanlar qrupunun "İgidlər» rəqsi yaxşı qarşılandı.

**«Samur» qəzeti", 30.05.2009.**

# ВЕЧЕР ТАНЦА

Что такое Дем лезгины знают хорошо. Традиционные лезгинские свадьбы обычно устраиваются летом, под открытым небом. После застолья все гости, друзья, соседи, знакомые, да и просто заслышавшие звуки свадьбы люди собираются в один большой круг перед домом жениха. И тут начинается зрелище. Под зажигательные лезгинские мелодии, независимо от возраста, танцуют все. Дем - это соревнование на выносливость и грацию, это место, где парни находят себе невест, а девушки женихов. Иными словами, Дем для лезгин - настоящий праздник. Начинается Дем с наступлением сумерек и продолжается, порой, до рассвета.

Бакинская молодежь давно хотела организовать Дем в Баку. Недавно, эту идею удалось воплотить в жизнь в одном из городских ресторанов. Организацию Дема взяла на себя газета «Самур». 17 февраля состоялся настоящий Дем. В отличие от свадебных Демов, здесь всем удалось принять непосредственное участие в танцах, конкурсах, викторинах. Особенно всем понравился танец с веткой, во время которого парень, вручая понравившейся девушке веточку, приглашал её на танец. Станцевав с ним, девушка вручала эту же ветку другому молодому человеку. И так танцевал весь круг.




Молодёжи очень понравилось петь хором. Заранее были розданы листы со словами песни «Пейкер баха», поэтому хор получился отменным. Самыми интересными конкурсами были признаны «Конкурс на лучший танец» и присуждение титулов «Мисс обаяние» и «Мистер сердцеед».

Дем длился более 3-х часов, но для лезгинской молодёжи, любящей танцевать, этого всё равно было мало. Расставаться всё же пришлось. Но этот Дем надолго запомнится всем его участникам.

**Газета «Самур», 24.02.2000**

**Лезгийрин йигин кьуьлери зун гьейранар на. Абурун гадайрини рушари гзаф викIегьдиз, дагъдин лекьери чархалай цIар ягъидай хьиз, йигиндиз кьуьлда. Инсандин гьар кIвачел агъзур шейтIан ацукьна кIанда хьи, «Лезгинкадал» икьван йигиндиз, икьван эсерлудаказ, икьван туькIвей къайдада кьуьлиз жен.**

**Александр Дюма,**
**французрин кхьираг.**



**Ləzgilərin iti rəqsləri məni heyran etdi. Onların həm oğlanları, həm də qızları çox cəld, dağ qartallarının şığımasına bənzər, olduqca çevik rəqs edirlər. Gərək adamın hər ayağında min şeytan otursun ki, «Lezginkada» belə iti, belə təsirli, belə mükəmməl qaydada rəqs edə bilsin.**

**Aleksandr Düma,**
**fransız yazıçısı.**

# ПАМЯТИ КОМПОЗИТОРА



Узы большой дружбы связывали композитора Фетуллаха Рагимханова с коллективом газеты «Самур». Счастливый в творчестве, но несчастный в личной жизни, похоронивший 3-х молодых сыновей, этот человек сделал очень много для развития культуры своего народа. Помимо того, что Ф.Рагимханов создавал музыкальные произведения, он собрал и перевёл на ноты 79 старинных лезгинских песен и танцев. Посвятивший себя искусству композитор при жизни оставался без внимания со стороны соответствующих организаций.

В память о талантливом композиторе, редакция газеты «Самур» и ансамбль «Сувар» под руководством Седагет Керимовой провели вечер, посвященный творчеству Ф.Рагимханова. На вечере звучали народные песни, собранные композитором.

**Азизрин Севда,**
**Газета «Самур», 30.03.2000.**

# ЧИ ЛУВАР

Алай йисан 26-декабрдиз Бакуда Р.Бегьбудован тIварунихъ галай манийрин театрдин дараматда кьиле фейи «Сувардин» концерт халисан сувардиз элкьвена, рикIер шадарна, луварар кутуна чахъ. «Иервал вуча?», «Чан кьакьан дагълар», «Тамуяр», «КьатIанач хьи», «Аман бала, Суна чан», «Яр», «Къуншид руш» хьтин манияр лугьузвай Решад Ибрагьимован, Агьмед Къурбанован, Руслан Пирвердиеван, Роза Гьажимурадовадин, Жемиле Заловадин верцIи ва везинлу сесери инсанриз мукьувай эсернавай. Абуру чеб дагъларин ценера, вацIарин къерехра, и кьил а кьил таквар тамара, гуьлуьшан яйлахра авайди хьиз гьиссзавай. «Сувардин» макьамар галукьзавай виринра абурун япарихъ. Секин, перишан хиялри гзаф яргъариз тухванвай абур.

Вуч хьсан я, лезги манидин къадир авай зурба ксар ава чахъ. И ксари хуьзва чи манияр, чи халкьдин руьгьдин девлет. Эхиримжи йисара лагьайтIа, и рекье виридалайни гзаф тафаватлу жезвай шаир-журналист, композитор Седакъет Керимовади чIугвазва кьван зегьметар са куьнивни гекъигиз жедач. Ада арадиз гъанвай ва вичи регьбервал ийизвай «Сувар» ансамблди хуьзва чи къадим макьамар.

Садлагьана звал акьалтна и хиялрални гьиссерал. Эхиримжи пуд йисан виридалайни хъсан лезги маниди, чIалар ва музыка С.Керимовадинбур тир «Лезгинкадал илига» макьамди зал юзурна. Чан атана дагъларин лекьерал. Руслан Пирвердиева и мани лугьудайла залди гурлу капар ягъана. Капар ягъизвай ксари «Аферин и манидин автордиз» лугьузвай. Гьакъикъатдани аферин! Са гафни авачиз XX виш йисан эхирда, XXI виш йиса кьил кутазвай вахтунда лезгийрин виридалайни рикI алай мани я «Лезгинкадал илига».




Илигна «Лезгинкадал» «Суварди». Жегьил лекьеривай – лезги кьегьалривайни рушаривай таб гуз хьанач ацукьнавай чкадал. Дагъларин кукIушрилай элкъвез лув гузвай лекьер хьиз сегьнедиз экъечIна абур. Кьуьлна абуру, капар ягъана ацукьнавай ксари. Халисан лезги мярекат кьиле фена. Чи манийрин ни макьамрин мярекат. Яшамишрай ам кьиле тухвай ксар. Аваз хьурай чи манияр. Аваз хьурай «Сувар». Чи суварни чи лувар тир «Сувар»!

**М. МЕЛИКМАМЕДОВ,**
**«Самур» газет, 29.12.2000.**

# ПЕРВЫЙ ДИСК «СУВАРА»

